# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyinin 2021-ci il üçün xərclər smetası"nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli ərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında ɉeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnamə"nin 4.11-ci əndinə əsasən:

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına 'övlət Dəstəyi Şurasının Katibliyinin 2021-ci il üçün xərclər smetası" təsdiq edilsin əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə ısdiq edilmiş xərclər smetası üzrə vəsaitin müəyyən olunmuş qaydada ıaliyyələşdirilməsini təmin etsin.

3. Bu Sərəncam 2021-ci il yanvarın 1-dən tətbiq edilir.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

akı şəhəri, "27" fevral 2021-ci il
№ 159з

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 fevral tarixli 159з nömrəli Sərəncamı ilə **təsdiq edilmişdir.**

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyinin 2021-ci il üçün**

**XƏRCLƏR SMETASI**

| Sıra №-si | Xərclərin iqtisadi təsnifatı | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Ştatda olan işçilərin əməkhaqqı | 192 780 |
| 2. | Ştatdankənar işçilərin əməkhaqqı | 359 040 |
| 3. | Əməyin ödənişi ilə bağlı digər pul ödənişləri, o cümlədən: | 238 500 |
| 3.1. | təmsilçilik xərcləri | 174 240 |
| 4. | Məcburi dövlət sosial sığorta haqları | 173 870 |
| 5. | İcbari dövlət sığortası | 1 739 |
| 6. | İcbari tibbi sığorta | 15 810 |
| 7. | İşsizlikdən sığorta | 3 952 |
| 8. | Sair xərclər, o cümlədən: | 935 309 |
| 8.1. | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının mətbu nəşrlərinin təsis edilməsi, xüsusi bülletenlərin buraxılması, konfransların, simpoziumların, forumların təşkili, üzvlərin bu tədbirlərdə iştirakı ilə əlaqədar xidməti ezamiyyə, işin təşkili ilə əlaqədar xidmət haqlarının, ekspertlərin qonorar xərclərinin ödənilməsi və fəaliyyəti ilə bağlı digər xərclər | 192 299 |
| | Cəmi | 1 921 000 |

**Qeyd.** Azərbaycan Respublikasının 2021-ci ilin dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası üzrə cəmi 6 316 097 (altı milyon üç yüz on altı min doxsan yeddi) manatın 1 921 000 (bir milyon doqquz yüz iyirmi bir min) manatı Şura Katibliyinin saxlanılmasına, 4 395 097 (dörd milyon üç yüz doxsan beş min doxsan yeddi) manatı isə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi ilə bağlı qeyri-hökumət təşkilatlarının qrant şəklində maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulmuşdur.

---

HÜQUQ VƏ QANUNVERİCİLİK ŞÖBƏSİ